# "BIAF incəsənətimizi populyarlaşdırmaq və Azərbaycanın mədəni sərvətini dünyaya nümayiş etdirmək üçün əla fürsətdir"



Heydər Əliyev Fondunun təşəbbüsü və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycanda bir çox əhəmiyyətli mədəni layihə uğurla həyata keçirilir və onlar milli incəsənətin inkişafı üçün yeni üfüqlər açır.

Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində Bakı Beynəlxalq İncəsənət Festivalının fəxri səfiri və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Fuad İbrahimov bildirib.

Maestro qeyd edib: "Fondun və nazirliyin ölkənin mədəni həyatında fəal iştirakı, yeni ideyalar və formatlar üzərində daimi axtarışı davamlı olaraq canlı və ilhamverici təşəbbüslərin ortaya çıxmasına səbəb olur. Bu məqsədyönlü iş dialoqu, təcrübə mübadiləsini və ilhamlanmanı təşviq edən yeni yaradıcı məkanlar yaradır".

Bakı Beynəlxalq İncəsənət Festivalının (BIAF) əhəmiyyətindən danışan Fuad İbrahimov bu cür təşəbbüslərin beynəlxalq əməkdaşlıq və mədəni diplomatiya baxımından təkcə bədii deyil, həm də dərin maarifləndirici əhəmiyyətə malik olduğunu vurğulayıb.

O əlavə edib: "Dünyada bir tendensiya müşahidə edirik: yeni əsərlər, gənc solistlər, dirijorlar və rejissorlar yeni perspektivlər gətirir, səhnəni yeniləyir və mədəni üfüqləri genişləndirirlər. Konsertlərə və tamaşalara qatılmaq insanların zövqlərinin, dünyagörüşlərinin inkişaf etdirilməsinə və sənəti fərqli prizmalardan qavramağı öyrətməyə kömək edir. Bütün bunlar cəmiyyəti mənəvi cəhətdən daha zəngin və mədəni baxımdan yetkin edir".

Fuad İbrahimov qeyd edib ki, musiqi millətindən və mənşəyindən asılı olmayaraq, insanları birləşdirə bilən universal bir dildir. "Mədəni diplomatiya baxımından BIAF kimi festivallar çox böyük əhəmiyyət kəsb edir, ölkələr arasında körpülər yaradır, etimad və dostluğu möhkəmləndirir. Biz xarici musiqiçiləri və rejissorları dəvət edirik, onlar öz növbəsində bizə dəvət göndərirlər və beləliklə, əsl yaradıcı birlik yaranır", - deyə dirijor vurğulayıb.

Festivalın gələcəyindən danışan maestro onun illik ənənəyə çevriləcəyinə əminliyini ifadə edib.

"Əminəm ki, festivala maraq daha da artacaq. Hər il iştirakçıların və tamaşaçıların dairəsi genişlənəcək, həmçinin yaradıcı əlaqələr möhkəmlənəcək. Bu, təkcə sənətimizi populyarlaşdırmaq üçün deyil, həm də Azərbaycan mədəniyyətinin zənginliyini dünyaya nümayiş etdirmək üçün gözəl bir fürsətdir. Ölkəmizin çoxlu mənzərəli guşələri var və inanıram ki, gələcəkdə festival mütləq Şuşaya çatacaq. Hələlik hər şey Bakıda cəmləşib, axı ilk festivala evsahibliyi etmək həmişə xüsusi məsuliyyət tələb edir. Amma əminəm ki, qarşıdakı illərdə onun əks-sədası bütün Azərbaycana yayılacaq", - deyə F.İbrahimov sözlərini yekunlaşdırıb.

Azərbaycan. - 2025.- 5 noyabr (№236).- S.11.